# Afro-Avroasiyanın Miqrasiya edən

# Su-Bataqlıq Quşlarının Muhafizəsi

# üzrə Razılıq

# (AEWA)

**Razılıq iclasının( iyun 1995 il ) yekun aktı**
**və**
**görulәgәk işlәrin planı ilә razılaşmanın mәtni.**

dərc olunmuşdur:

Afro-Avroasiyanın Miqrasiya edən Su-Bataqlıq quşlarının Muhafizəsi üzrə razılaşmanın Müvəqqəti katibliyi
Poçt qutusu 20401
2500 EK Haaqa, Hollandiya

Bu sənəd həmçinin ingilis, fransız və ərəb dillərində nəşr olunmuşdur.

## Giriş sözü

Tərəflərin Miqrasiya edən Vəhşi heyvanların Mühafizəsi konvensiyasının Iştirakçılarının , sadə şəkildə Bonn konvensiyası adlanır, 1988- ci ildə keçirilmiş birinci görüş zamanı Qərbi-Palearktika Qazkimiləri haqqında Razılığın işlənməsi barədə qerar qəbul edilmişdi. Bu görüş başa çatandan sonra Hollandiya höküməti Qərbi-Palearktika Suüzər Quşları üzrə Razılığın layihəsinin Qərbi-Palearktika Miqrasiya yollarının mühafizə proqramının bir hissəsi kimi hazırlanmasına başlanmışdır. 1991- ci ildə ördəklərinin, qu quşlarının və qazlarının barəsində Iş Planı və həmçinin Suüzər quşlarının bütün populyasiyalarına aid ümumi Tədbirlərə Rəhbərlik planı daxil olan Razılığın layihəsi Razılığın sponsoru kimi təklif vermiş Avropa birliyinin Komissiyasına göndərilmişdir.

1993-cü ilin əvvəlində Bonn konvensiyasının katibliyi tərəfindən Hollandiya höküməti , Kənd təsərrüfatı, Təbiəti mühafizə və Balıqçılıq Nazirliyi ilə sıx əməkdaşlıqda bu təşəbbüsün sonrakı inkişafı və Razılığın layihəsinə sonrakı düzəlişlərin daxil edilməsi üçün tədbirlər görülmüşdür. Razılığın Afrika qitəsi ilə əlaqədar aspektlərinə daha böyük rol ayrılmışdır. Bundan başqa Razılığın özünündə adı dəyişdirilmişdir: Razılıq bundan sonra Afro-Avroasiyanın Miqrasiya edən Su-Bataqlıq Quşlarının Mühafizəsi üzrə Razılıq (AEWA) adlanır.

Afro-Avroasiyanın Miqrasiya edən Su-Bataqlıq Quşlarının Mühafizəsi üzrə Razılıq (AEWA) arealındakı ölkələrinin nümayəndələrinin birinci məşvərət görüşü 1994-cü ilin iyununda Nayrobidə keçirilmişdir.Görüşdə Razılıq üzərində aparılan işlərinin aparılması və qəbul olunması fikri qəti şəkildə dəstəklənmiş, və demək olar ki, Razılığın predmetinə aid bütün bəndlər üzrə konsensura gəlmək mümkün idi.

1995-ci ilin iyununda Haaqada(Hollandiya) Razılıq Müşavirəsinin nümayəndəsinin və Avropa Ittifaqının nümayəndələrinin iştirakı ilə keçirilmişdir. Bir neçə höçümətlərarası və qeyri-höçümət təşkilatlarının nümayəndələri Müşavirədə müşahidəki kimi iştirak etmişdilər. Müşavirə Afro-Avroasiyanın Miqrasiya edən Su-Bataqlıq Quşlarının Mühafizəsi üzrə Razılığı konsensusla qəbul etmişdir. Hollandiya Kral Hökümətinin bu Razılığın imza üçün açıldığı andan ilk üç il müddətində Derozitarı rolunda çıxış etməsi, Razılığın Müvəqqəti Katibliyinin işləməsini təmin etməsi və Razılığın qüvvəyə minməsindən sonra Tərəflərinin Iclasının birinci sessiyasını keçirməsi təklifi minnətdarlıqla qəbul edilmişdir.

Hollandiya höküməti tərəfindən (Kənd təsərrüfatı nazirliyi, Təbiəti mühafizə departamenti, Beynalxalq təbiəti mühafizə şöbəsi) 1996-cı ilin yanvarın 1-dən fəaliyyət göstərən Razılaşmanın Müvəqqəti Katibliyi təsis olunmuşdur.

Afro-Avroasiyanın Miqrasiya edən Su-Bataqlıq Quşlarının Mühafizəsi üzrə Razılıq (AEWA) 1996-cı ilin avqustun 15-də Haaqada Hollandiya Xarici Işlər Nazirliyində imza atmaq üçün açılmışdır.

Razılaşma Müşavirəsindən sonra Razılığın fransız və ingilis dillərindəki mətnlərinə bəzi kiçik linqvistik dəyişiklər edilmişdir. Sonradan Razılıq rus və ərəb dillərinə tərcümə edilmişdir.Bu sənəd özündə Razılığın mətninin son redaksiyasını və Razılıq müşavirəsinin yekun aktının mətnini iştirakçı ölkələrinin 16 iyun 1995-ci ildə imzaladıqları şəkildə daşıyır.

## Afro-Avroasiyanın Miqrasiya edən Su-Bataqlıq Quşlarının

## Mühafizəsi üzrə Razılaşmanın

## qəbul olunması üzrə Razılaşma Müşavirəsinin

## Yekun Aktı

Areal ölkələrinin Hökümət nümayəndələri və bir regional iqtisadi inteqrasiya təşkilatı 1996-cı ilin iyunun 12-dən 16-dək Hollandıyada, Haaqa şəhərində Xarici Işlər Nazirliyində Afro-Avroasiyanın Miqrasiya edən Su-Bataqlıq Quşlarının Mühafizəsi üzrə Razılaşmanı (Vəhşi Növ Heyvanlarının Miqrasiya edən Növlərinin Mühafizəsi Konvensiyasının (CMS) 4-cü Maddəsinin 3 paraqrafına uyğun olaraq Razılıq adlanır) müzakirə edib qəbul etmək üçün görüşmüşlər.

Müşavirənin BMT-nin Ətraf Mühüt Proqramının / CMS katibliyi (səlahiyyətlərinə görə Konvensiyanın Katibliyinə uyğundur) Hollandiya Krallığı Höküməti ilə birlikdə keçirmişdir. Aşağıda göstərilən 64 Arealın ölkəsi və bir regional iqtisadi inteqrasiya təşkilatı iştirak edirdi:

Anqola, Ermənistan, Avstriya, Belçika, Benin, Bolqarıstan, Burundi. Kamerun, Mərkəzi-Afrika Respublikası, Çad, Xorvatiya, Çex Respublikası, Danimarka. Misir, Ekvatorial Qvineya, Estoniya, Efiopiya, Avropa Ittifaqı, Finlyandiya, Fransa, Qabon, Gürgüstan,Almaniya. Qana,Yunanıstan, Qvineya, Qvineya-Bisau, Macarıstan, Irlandiya, Islam Respublikası Iran, Iordaniya, Keniya, Lyuksenburq, keçmiş Yuqoslaviya Respublikası Makedoniya, Malavi, Mavritaniya, Moldova Respublikası, Marokko,Mozambik.Namibiya. Niderlandlar, Norveç, Polşa, Portuqaliya. Rumıniya, Ruanda. San-Tome və Prinsipi, Seneqal, Seyşel, Slovakiya, Cənub Afrika, Ispaniya, Sudan, Svazilend, Isveç, Isveçrə, Birləşmiş Tanzaniya Respublikası, Toqo. Tunis, Uqanda,Ukraina.Birləşmiş Böyük Britaniya Krallığı, Özbəkistan, Zambiya, Zimbabve.

Hindistan və Pakistan hökümətləri Iclasda müşahidəki rolunda iştirak edirdilər.

BMT-nin , hökümətlərarası və qeyri-hökümət təşkilatlarının aşağıda qeyd olunan orqanlarıda Müşavirədə müşahidəki kimi iştirak etmişlər:

BMT-nin Ətraf mühüt proqramı (UNEP), Avropanın Vəhşi Heyvanlarının və Təbii Yaşayış Yerlərinin Mühafizəsi Konvensiyası (Bern Konvensiyası), Beynəlxalq əhəmiyyətli Su-Bataqlıq Əraziləri Konvensiyası, xüsusilə Suüzər Quşlarının Yaşayış yeri timsalında(Ramsar Konvensiyası), Arktika Flora və Faunasının mühafizəsi Proqramı (CAFF), Beynəlxalq Quşları Müdafiə Assosiasiyası Bird Life International, Beynəlxalq Ov Növlərinin Müdafiəsi Komitəsi Dördüncü Iclasının prosedura qaydalarını qəbul etdi:

Müşavirə aşağıdakı Komitələri və Işçi Qrupları seçdi:

Səlahiyyətlər üzrə Komitə: Qvineya, Hollandiya, Polşa, Maldova Respublikası, Cənubi(CIS), Avropa Təbiətin Varisliyi Fondu (EURONATUR), Avropa Birliyinin Ovçular Assosiasiyaları Federasiyası (FACE), Tur-de-Valat Fondu. Su-Bataqlıq Quşları və Su-Bataqlıq Sahələrinin öyrənilməsi üzrə Büro (IWRB), Beünəlxalq Təbiət və Təbii

Ehtiyatlarının Mühafizəsi Ittifaqı (IUCN), Su-Bataqlıq quşları və Su-Bataqlıq Sahələri üzrə Trest.

Müşavirədə cənab Jan Reno (Belçika ) - Sədr, cənab Nqoq Nye (Kamerun) və Yaroslav Movçan - Sədr Müavinləri seçildilər. Müşavirənin Baş Katibi cənab Amulf Müller Xelmbrext (UNEP/CMS Katibliyi) idi.

Müşavirə, mutantis mutandis - Miqrasiya edən Vəhşi Heyvanların Mühafizəsi üzrə Konvensiya (Nayrobi, 1994 ) Tərəf - Iştirakçılarının Konfransının Afrika.

Sədr: cənab Ferdinand fon der Assen, Hollandiya.

Görüləcək işlərin müzakirəsi üzrə işçi qrup;

Sədr: cənab Jan Nqoq Nye. Kamerun.

Razılaşmanın hazırlığı üzrə qrup;

Sədr: cənab Duqlas Xikl, UNEP/CMS Katibliyi.

Müşavirə Afro-Avroasiyanın Miqrasiya edən Su-Bataqlıq Quşlarının Mühafizəsi üzrə Razılığı ingilis və fransız dillərində konsensusla qəbul etdi ki, bu Yekun Aktının I əlavəsindən müşayiət olunur. Hollandiya Hökümətinin bu Razılığın imza üçün açıldığı andan ilk üç il müddətində öz vəsaitləri hesabına Depozitarı rolunda çıxış etməsi, Razılığın müvəqqətikatibliyinin işini təmin etməsi və Razılığın qüvvəyə minməsindən sonra Tərəflərin Iclasının birinci sessiyasını keçirməsi təklifi minnətdarlıqla qəbul olunmuşdur.

Bonn Konvensiyası Tərəf-Iştirakçılar Konfransının dördüncü görüşündə( Nayrobi, 1994) qəbul olunmuş 4.4. Qərarının maddələrini Iclas nəzərə aldı. Bunlar inter alia nəzərdə tutur ki, Konvensiya daxilində qəbul olunmuş konkret Razılaşmanın Tərəflərinə təklif olunmalıdır ki, katibliyin funksiyalarını Konvensiyanın Katibliyinin fəaliyyət göstərdiyi yerdəki bir orqanda cəmləşdirilsinlər və müxtəlif Razılaşmanın katiblikləri bütövliklə müvafiq Tərəflərlə maliyyələşirlər.

Müşavirə:

- Razılaşmanın müvəqqəti Katibliyinə tapşırılsın ki, imkan daxilində, Tərəflərin Müşavirəsinin birinci sessiyası üçün aşağıdakılar üzrə təkliflər hazırlasınlar:

(a) Razılaşmanın 2 Əlavəsində qeyd olunmuş növ və fəsilərə tətbiq olunmaqla Iş Planına əlavələrə;

(b) Iş Planında nəzərdə tutulmuş populyasiyaların mühafizə statusunun icmalına;

(v) Fövqəladə halların müəyyənləşdirilməsinin kriterilərinə;

(q) Mühafizə üzrə Rəhbərliyə;

(d) Tərəflərin hesabatları üçün standartlara;

(e) Razılaşmanın maddi tərəfi ilə bağlı büdcə, maliyyə qaydaları və digər suallara;

(j) Texniki komitənin; və

(z) Razılığın embleminin təşkili barədə.

Müşavirə:

- Tərəflərin Müşavirəyə təklif olunur ki, birinci sessiyada Razılaşmanın büdcəsinə maliyyə köçürmələrinin əvəzinə Tərəflərin kompensasiya əmanətlərinin qəbul olunmasının mümkünlüyünü müzakirə etsinlər. Başa düşərək ki, konkret tərəfdən olan bu cür kompensasiya əmanətlərinə ancaq istisna hallardaicarə vermək lazımdır və kompensasiyanın xarakteri Müqavilənin tələblərinə və məqsədlərinə uyğun gəlməldir.

- UNEP/CMS Katibliyinin və Ramsar Konvensiyası Bürosunun Müqavilənin işinə kömək məqsədilə sonrakı əməkdaşlıq və bircə fəaliyyətin formal əsasını müəyyənləşdirmək təşəbbüsünü salamlayır və Müqavilənin orqanlarına onların yaranmasından sonra bu təşkilatı işə qoşulmağı tövsiyə edir:

- Miqraisya edən növləri araşdıran Bern Konvensiyası ilə əmakdaşlığın vacibliyini qəbul edir;

-Miqrasiya edən Vəhşi heyvanların Mühafizə Konvensiyasının III Maddəsinin 5 paraqrafında qeyd olunmuş qadağaların çıxarılmasının mümkünlüyünü təsdiq etdi, belə ki, onlar Tədbirlər Planının 2.1.1. paraqrafında qeyd olunmuş vacib mühafizə tədbirləri ilə əlaqəli ola bilərlər;

- “Ekoloji turizm” anlayışının bu Müqavilənin kontestində --dayanaqlıq prinsipinə əsaslanan və ətraf mühiti qoruyan turizm-- kimi açıqlaması ilə razılaşdı.

Müşavirə Belçika, Danimarka, Fransa, Isveçrə və Zimbabve nümayəndə heyətlərinin müraciətlərini, Efiopiya, Namibiya, Cənubi Afrika, Sudan, Svazilend, Birləşmiş Tanzaniya Respublikası, Zambiya, və Zimbabvenin bircə müraciətini nəzərə aldı. Onların mətnləri bu Yekun Aktının II əlavəsində verilmişdir.

Müşavirə Hollandiya Krallığı hökümətinə Müşavirənin maddi dəstək vermiş Hökümətlərə, təşkilatlara və kompaniyalara minnətdarlığını bildirmişdir.

Müqavilə imza atmaq üçün Hollandiya Xarici Işlər Nazirliyində 16 oktyabr 1995-ci il tarixindən açıq olacaqdır.

Yuxarıdakıları təsdiq etmək üçün Nümayəndələr bu Yekun Aktını imzalamışdılar.

Min doqquz yüz doxsan beşinci ilin iyun ayının on altıncı günü Haaqada baş vermişdir.

Nümayəndə heyəti adından:

| | |
|---|---|
| The Republic of Anqola | de la Republique d Anqola |
| The Republic of Armenia | de la Republique d Armenie |
| The Republic of Belgium | de la Republique de Belgique |
| The Republic of Benin | de la Republique de Benin |
| The Republic of Bulqaria | de la Republique Bulqaria |
| The Republic of Burundi | de la Republique du Burundi |
| The Republic of Cameroon | de la Republique du Sameroon |
| The Republic of Central Afrika | de la Republique Centrafricaine |
| The Republic of Chad | de la Republique du Tchad |
| The Republic of Croatia | de la Republique de Croatie |
| The Crech Republic | de la Republique tcheque |
| Tne Kingdom of Denmark | du Royaume du Danemark |
| The Arab Republic of Egypt | de la Republique arabe d Egypte |
| The Republic of Equatorial Guinea | de la Republique de Guinea equatoriale |
| Ethiopia | d Ethiopie |
| Europea Community | de la Communaute europeenne |
| The Republic Finiand | de la Republique de iniande |
| The French Republic | de la Republique francaise |
| The Republic of Gabon | de la Republique gabonaise |
| The Republic of Georqia | de la Republiquede Georqia |
| The Federal Republic of Germany | de la Republique federal d Allemagne |
| The Republic of Ghana | de la Republique du Chana |
| The Republic of Greeca | de la Republique hellenique |
| The Republic of Guinea | de la Republique de Guinee |
| The Republic of Guinea – Bissau | de la Republique de Guinea- Bissao |
| The Republic of Hungary | de la Republique de de Hongria |
| The Islamik Republic of Iran | de la RepubliqueIslamique d Iran |

| | |
|---|---|
| The Republic of Jordan | du Royaume hachemite de Jordanie |
| The Grand Duchy of Luxemburq | du Grand-Duche de Luxembourg |
| The Republic of Malavi | de la Republique du malavi |
| The Islamik Republic of Mauritania | de la Republique Islamique de Mauritanie |
| The Republic of Moldova | de la Republique de Moldova |
| The Kinqdom of Morokko | du Royaume du Maroc |
| The Republic of Mozambique | de la Republique du Mozambique |
| The Republic of Namibia | de la Republique de Namibie |
| The Kingdom of the Natheriands | du Royaume des Pays-Bas |
| The Kingdom of Norvay | du Royaume de Norvege |
| The Republic of Poland | de la Republique de Poloqne |
| The Portugese Republic | de la Republique portugaise |
| Romania | de la Roumanie |
| The Republic of Rvanda | de la Republique rvandaise |
| The Republic of Senegal | de la Republique du Senegal |
| The Republic of South Afrika | de la Republique d Afrique du Sud |
| The Republic of Sudan | de la Republique du Soudan |
| The Kingdom of Svaziland | du Royaume de Svaziland |
| The Kingdom of Sveden | du Rayaume de Suede |
| The Sviss Contederation | de la Confederation suisse |
| The United Republic of Tanzania | de la Republic unie de Tanzania |
| The Republic of Togo | de la Republic togolaise |
| The Republic of Tunisia | de la Republic tunisienne |
| The Republic of Uganda | de la Republic de I Ouganda |
| Ukraine | Ukraine |
| The United Kingdom | du Royaume - Uni |

| | |
|---|---|
| The Republic of Uzbekistan | la Republic d Ouzbekistan |
| The Republic of Zambia | de la Republic de Zambia |
| The Republic of Zimbabve | de la Republic du Zimbabve |
| The Republic of Kenya | de la Republic du Kenya |
| The Republic of Latvia | de la Republic de Lettonie |

# Afro-Avroasiyanın Miqrasiya edən

# Su-Bataqlıq Quşlarının Mühafizəsi üzrə

# Razılıq

**Müqavilə bağlayan tərəflər**

**Qeyd edərək ki**, 1979-cı Miqrasiya edən Vəhşi Heyvan Növlərinin Mühafizəsi üzrə Konvensiya miqrasiya edən növlərin qorunmasında beynəlxalq əmakdaşlığı dəstəkləyir;

**Nəzərə alaraq ki**, Konvensiya Tərəflərinin 1985-ci ilin oktyabrında Bonnda keçirilmiş birinci görüşü Konvensiya Katibliyinə Qərbi-Palearktika qazkimiləri üzrə razılığın işlənməsi üçün müvafiq tədbirlər görməyi tapşırmışdır;

**Anlayaraq ki,** miqrasiya edən su-bataqlıiq quşları dünya bioloji müxtəlifliyinin vacib hissəsini təşkil edirlər və Biomüxtəliflik üzrə 1992-ci il Konvensiyası 2-ci Proqramın ruhuna uyğun olaraq onları indiki və gələcək nəsillərin rifahına qorumaq lazımdır;

Miqrasiya edən su-bataqlıq quşlarının ayrı-ayrı növlərinin istifadəsi nəticəsində alınan iqtisadi, ictimai, mədəni və rekreativ səmərələri, su-bataqlıq quşlarının ətraf mühitdə və genetik, elmi, estetik, rekreativ, mədəni, təhsil, ictimai və iqtisadi əhəmiyyətini ümumilikdə **başa düşərək;**

**Əmin olaraq ki,** miqrasiya edən su-bataqlıq quşlarının istənilən istifadə formaları, bu növlərin bütün areal sahəsi boyunca mühafizə statusunu və eləcə də onların bioloji xarakteristikalarını nəzərə almaqla dayanıqlı əsasda aparılmalıdır;

**Nəzərdə tutaraq ki**, miqrasiya edən su-bataqlıq quşları xüsusilə həssasdılar, belə ki, böyük məsafələrə miqrasiya edirlər və su-bataqlıq sahələrindən asılıdırlar. Bu sahələrin sayı isə insanın təsiri ilə azalır və deqradasiyaya uğrayır ki, bu da əsas etibarilə, Suüzərlərin yaşayış yerləri kimi 1971-ci il Beynəlxalq Əhəmiyyətli Su-Bataqlıq əraziləri üzrə Konvensiyada öz əksini tapmışdır;

Miqrasiya edən su-bataqlıq quşlarının sayının azalmasının və Afro-Avroasiya Miqrasiya yollarında onların yaşayış yerlərinin deqradasiyasının qarşısını almaq üçün təcili tədbirlərin vacibliyini **başa düşərək;**

**Əmin olaraq ki,** çoxtərəfli Razılığın bağlanması və onun koordinasiya olunmuş və ya razılaşdırılmış tədbirlərdə yerinə yetirilməsi miqrasiya edən su-bataqlıq quşlarının və onlarının yaşayış yerlərinin qorunması işinə mühüm və effektiv kömək etmək qabiliyyətinə malikdir və eləcə də çoxlu sayda dicər heyvan və bitki növlərinin qorunmasına əlavə təkan olacaqdır; və

**Nəzərə alaraq ki.** belə razılılığın effektiv yerinə yetirilməsi areal ölkələrindən bəzilərinə tədqiqatlar üçün, işkilərin təlimi və miqrasiya edən su-bataqlıq

quşlarının növlərinin və onların yaşayış yerlərinin monitorinqi üçün, habelə bu Razılığın yerinə yetirilməsi üçün elmi və müdiriyyət orqanlarının yaradılması və təkminləşdirilməsi üçün kömək tələb edəcəkdir.

**Aşağıdakılarla razılaşdılar:**

## Maddə I

## Ərazi, Müəyyən Edilmələr və Açıqlamalar

1. Bu Razılığın coğrafi sahəsi su-bataqlıq quşlarının Afro-Avroasiyanın uçuş yollarına yayılır ki, bu da Razılığın I əlavəsində müəyyən edilmişdir və sonradan "Razılıq ərazisi" adlanır.
2. Bu Razılığın mətnində:
   (a) "Konvensiya" 1979-cı il Miqrasiya edən Vəhşi Heyvanların Müdafiəsi üzrə Konvensiya deməkdir;
   (b) "Konvensiyanın Katibliyi" Konvensiyanın IX Maddəsinə uyğun yaradılmış orqan deməkdir;
   (v) "Su-bataqlıq quşları "elə quş növləri deməkdir ki, öz həyat fəaliyyətinin illik dövriyəsinin heç olmasa bir hissəsində su-bataqlıq sahələrində ekoloji asılıqların arealı tam və ya qismən Razılığın ərazisi hüquqlarındadır və bu Razılığın 2-ci Əlavəsində sadalamışdır;
   (q) "Razılığın Katibliyi" bu Razılığın VI maddəsində, 7 paraqrafına, (b) paraqrafaltına uyğun olaraq yaradılan orqana deyilir;
   (d) "Tərəflər" əcər mətndə başqa cür çıxmırsa, bu Razılığın Tərəflərinə deyilir; və
   (e)"Iştirak edən və səs verən Tərəflər"iştirak edən və leyhinə və ya əleyhinə səs verən Tərəfə deyilir; yəni səs verməddə boyun qaçıranlar səs verən və iştirak edən hesab olunmurlar.

   Əlavə olaraq Konvensiyanın I maddənin 1(a)-dan 1(k)-ya qədər paraqrafaltılıqlarında müəyyən olmuş terminlər bu Razılıqda uyğun dəyişiklər və həmin mənanı daşıyır;

3. Bu Razılıq Konvensiyanın IV maddəsinin 3 paraqrafında müəyyən olunmuş tərifə uyğun Razılıqdır.
4. Bu Razılaşmaya olan əlavələr onunla bir bəhdət təşkil edir. Razılaşmaya edilən istənilən istinad onun əlavəsinə olunan istinadı özünə daxil edir.

## Maddə II

## Əsas Prinsiplər

1. Miqrasiya edən su-bataqlıq quşlarının mühafizə statusunun qənaət-bəxş saxlanması və ya belə statusun bərpası üçün tərəflər əlaqələnmiş tədbirlər görəcəklər. Bunun üçün onlar III maddədə qeyd olunmuş və xüsusi tədbirlərlə yanaşı (bu Razılığa əlavə olunmuş IV Maddəyə uyğun olaraq) milli qanunvericilik hüquqlarında tədbirlər həyata keçiriləcəklər.
2. Yuxarıdakı 1paraqrafda qeyd olunmuş tədbirlərin həyata keçirmək tərəflər ehtiyyatlı prinsiplərini əsas tutmalıdırlar.

## Maddə III

## Ümumi Mühafizə Tədbirləri

1. Tərəflər miqrasiya edən su-bataqlıq quşlarının qorunması üçün tədbirlər görməlidir. Məhv olmaq təhlükəsi altında olan növlərə, habelə qeyri qənaətbəxş mühafizə statusuna malik xüsusi fikir vermək lazımdır.
2. Bu məqsədlə tərəflər borcludurlar:

(a) konvensiyanın 4 və 5 paraqraflarında III nəzərdə 3 Maddədə nəzərdə tutulduğu kimi Razılığın ərazisində təhlükə altında olan miqraisya edən su-bataqlıq quşları üçün ciddi mühafizə tətbiq etmək;

(b) zəmanət vermək ki, miqrasiya edən su-bataqlıq quşlarının istənilən istifadəsi onların ekologiyasının ən müasir biliklərinə əsaslanır və həm növlər, həm də onlara dayaq verən ekoloji sistemlər üçün dayanıqlıdır;

(v) ərazilərinda olan su-bataqlıq quşlarının olduğu və yaşayış yerlərini tapmaq, və bu Razılığın IX Maddəsində, (a) və (b) paraqraflarında sadalanmış, yaşayış yerlərinin mühafizəsi ilə məşğul olan orqanlarla birlikdə bu yerlərin mühafizəsində, idarə olunmasına və bərpasına köməklik göstərmək;

(q) su-bataqlıq ərazisinin sahəsi bu bataqlığın iştirakkısı olan bir ölkənin hüquqlarından kənarda yerləşən zaman uyğun yaşama yerləri şəbəkəsidəstəklənir, və ya, zəruri halda, miqrasiya edən su-bataqlıq quşlarınınbaxılan növlərinin hər birinin bütün arealı boyunca yenidən yaradılır;

(d) antropogen təsirlərlə bağlı və ya bağlı ola bilən problemləri tətbiq etmək və yaşayış yerlərinin bərpası və reabilitasiyasının daxil etməklə (Yaşayış yerlərini itirdikdə konpensasiya tədbirləridə olmaqla) mühafizə tədbirlərini həyata keçirtmək üçün çalışmaq;

(e) beynəlxalq səviyyədə razılaşdırılmış tədbirlər tələb olunan fövqəladə hallarda əmakdaşlıq etmək, belə hallarda miqrasiya edən su-bataqlıq quşlarının daha zəif növlərinin müəyyən etmək, eləcə də belə hallarda bu növlərin mühafizəsini effektliyini yuksəltmək üçün yerinə yetirilən təcili tədbirlərdə və Razılığın ayrı-ayrı iştirakkılarına belə halları aradan qaldırmağa kömək məqsədilə təlimatlar hazırlayarkən əməkdaşlıq etmək;

(j) yerli olmayan su-bataqlıq quşlarının növlərinin bilərəkdən təbiətə introduksiya edilməsini qadağan etmək və belə növlərin bilməyərəkdən (əgər bu vəhşi flora və faunanın mühafizə statusuna mənfi təsir göstərirsə) təbiətə buraxılmasının qarşısını almaq üçün bütün lazımı tədbirləri görmək; Yerli olmayan su-bataqlıq quşlarının artıq introduksiya olunduğu hallarda, tərəflər onların aboriqen növlərə göstərə biləcək mənfi təsirini almaq üçün bütün lazımı tədbirləri görməlidirlər;

(z) miqrasiya edən su-bataqlıq quşlarının biologiyasınini və ekologiyasının( tətqiqat və monitorinq üsullarının əlaqələnməsi də daxil olmaqla) tətqiqatlarını stimulyasiya etmək və ya dəstəkləmək və imkan daxilində bircə və ya birləşdirilmiş tətqiqat və monitorinq proqramları yaratmaq;

(i) hər şeydən əlavə su-bataqlıq quşlarının miqrasiyasını qeydə almaq üçün monitorinq. Halqalama birincilik xarakterli mövzuların və öyrənilən rayonların müəyyən olunması su-bataqlıq sahələrinin mühafizəsi və idarə olunması üçün və inkişaflı əmakdaşlığın aparılması və müvafiq tədris proqramları ilə təmin olunması üçün öz kadrlar hazırlığı sistemlərini analiz etmək;

(k) miqrasiya edən su-bataqlıq quşlarının mühafizəsi problemlərinin ümumilikdə və bu Razılığın konkret məqsəd və maddələrini daha yaxşı anlamağa və başa düşməyə kömək edən proqramların planlaşdırması və həyata keçirilməsini davam etdirmək;

(l) mühafizə və tədris proqramları ilə monitorinqlarin tətqiqatların məlumatları və nəticələri ilə mübadilə etmək; və
(e) beynəlxalq səviyyədə razılaşdırılmış tədbirlər tələb olunan fövqəladə hallarda əməkdaşlıq etmək, belə hallarda miqraisya edən su-bataqlıq quşlarının daha zəif növlərinin müəyyən etmək, eləcə də belə hallarda bu növlərin mühafizəsinin effektivliyini yüksəltmək üçün yerinə yetirilən təcili tədbirlərdə və razılığın ayrı-ayrı iştirakkılarının belə halları arada qaldırmaqla kömək məqsədilə təlimatlar hazırlayarkən əməkdaşlıq etmək;
(j) yerli olmayan su-bataqlıq quşlarının növlərinin bilərəkdən təbiətə introduksiya edilməsini qadağan etmək və belə növlərin bilməyərəkdən(əcər bu vəhşi flora və faunanı mühafizə statusuna mənfi təsir göstərirsə) təbiətə buraxılmasının qarşısını almaq üçün bütün lazımi tədbirləri görmək, yerli olmayan su-bataqlıq quşlarının artıq introduksiya olunduğu hallarda, tərəflər onların aboriqen növlərə göstərə biləcək mənfi təsirini qarşısını almaq üçün bütün lazımi tədbirləri görməlidirlər;
(z) miqrasiya edən su-bataqlıq quşlarının biologiyasının və ekologiyasının (tətqiqat və monitorinq üsullarını əlaqələndirilməsi də daxil olmaqla) tətqiqatlarını stimulyasiya etmək və ya dəstəkləmək, və imkan daxilində, bircə və ya birləşdirilmiş tətqiqat və monitorinq proqramları yaratmaq;
(i) hər şeydən əlavə, su-bataqlıq quşlarının miqrasiyasını qeydə almaq üçün, monitorinq, halqalanma, birincilik xarakterli mövzuların və öyrənilən rayonları müəyyən olunması, su-bataqlıq sahələrini mühafizəsi və idarə olunması üçün və inkişaflı əməkdaşlığın aparılması və müvafiq tədris proqramları ilə təmin olunması üçün öz kadrlar hazırladığı sistemlərinin analiz etmək;
(k) miqrasiya edən su-bataqlıq quşlarının mühafizəsi problemlərini, ümümilikdə, və bu Razılığın konkret məqsəd və maddələrini daha yaxşı anlamağa və başa düşməyə kömək etməyə proqramların planlaşdırılmasını və həyata keçirilməsini davam etdirmək;
(l) mühafizə və tədris proqramları ilə, monitorinqlərinin, tətqiqatların təlimatları və nəticələri ilə mübadilə etmək; və
(m) bu Razılığın və həyata keçirilməsində biri birindən kömək məqsədilə, xüsusilədə tətqiqatlar və monitorinq sahəsində, əməkdaşlıq etmək.

## Maddə IV

### Tədbirlər Planı və Müşafizə üzrə Rəhbərlik

1. Tədbirlər planı bu Razılığa 3 Əlavə kimi daxil edilmişdir. Bura da ümumi mühafizə tədbirlərinə uyğun olaraq birincilik xarakterli növlərə və işlərin istiqamətinə görə tərəflərin qəbul edilməsi tədbirlər xüsusi olaraq baxılmışdır. Bunlar bu Razılığın III Maddəsində aşağıdakı başlıqları nəzərdən keçirmişdir;

(a) növlərin mühafizəsi;
(b) yaşayış yerlərinin mühafizəsi;
(v) insan fəaliyyətinin nizamlanması;
(q) tətqiqatlar və monitorinq;
(d) tədris və məlumat; və
(e) yerinə yetirilmə.

2. Tədbirlər Planı, Mühafizə üzrə Rəhbərlik nəzərə alınmaqla, Tərəflərinin müşavirəsini hər növbəti sessiyasında yenidən baxılmalıdır.

3. Tədbirlər Planında edilən istənilən düzəlişlər, bu Razılığın III Maddəsində verilmiş müddəaları nəzərə alınmaqla, Tərəflərin Müşavirəsində qəbul olunmalıdır.
4. Mühafizə üzrə Rəhbirlək qəbul olunmaq üçün tərəflərin müşavirəsinin birinci sessiyasında təqdim olunmalıdır və müntəzəm olaraq yenidən baxılmalıdır.

## Maddə V

## Yerinə yetirilmə və maliyyələşdirilmə

1. Hər bir Tərəf öhdəsinə götürür:
   (a) bu Razılığın yerinə yetirilməsi üçün Səlahiyyətli Nümayəndə və ya Nümayəndələr təyin edir; Nümayəndə, xüsusilə, bütün o tədbirlərə nəzərət edəcəkdir ki, miqrasiya edən su-bataqlıq quşlarının mühafizə statusuna xələl gələn növləri üçün bu Tərəf Areal Ölkəsi olsun.
   (b) digər Tərəflərlə kontakta olmaq üçün məsul şəxs təyin etmək və dicər iştirakkı tərəflərin tanış olması üçün təxirə salmada onun adını və ünvanı Razılaşmanın Katibliyinə bildirmək; və
   (v) içinci sessiyadan başlayaraq, Tərəflərin Müşavirəsinin hər növbəti sessiyası üçün, özünün Razılığı yerinə yetirilməsi haqda mühafizə üçün görülmüş konkret tədbirlərin qeyd olunması ilə hesabat hazırlamaq. Bu hesabatların struktur Tərəfləri Müşavirəsinin birinci sessiyasında müəyyən olunacaq və, əcər bu lazım gələrsə, Tərəflərin Müşavirəsinin istənilən sonrakı sessiyasında yenidən baxıla bilər. Hər bir hesabat Razılığın Katibliyinə nəzərdə tutulduğu, Tərəflərin Mşavirəsinin növbəti sessiyasına yüz iyirmi gün qalmışdan gec olmayaraq təqdim olunmalıdır və onun surətləri dicər Tərəflərə Razılığın Katibliyin tərəfindən göndərilməlidirlər.

2.
   (a) Hər bir Tərəf, BMT-nin qiymətləndirmə şkalasına uyğun olaraq, Razılaşmanın büdcəsinə üzvlik haqqını ödəməlidir. Üzvlük haqqları Arealı Ölkəsi olan hər bir Tərəfi uçun ümumi büdcənin maksimum 25% ilə məhdudlaşacaqdır. Iqtisadi inteqrasiyanın regional tışkilatlarından heç biri inzibati xərclərin 2,5% çoxunu ödəməli deyildir.
   (b) Büdcəyə aid olan qərarlar və qiymətləndirmə şkalasına edilən istənilən dəyişiklər, zəruri hallarda Tərəflərin Müşavirəsində konsensusla qəbul olunur.
3. Tərəflərin Müşavirəsi monitorinq, tədqiqatlar, təlim və miqrasiya edən su-bataqlıq quşlarının (qorunması və idarəolunmasıda daxil olmaqla) mühafizəsinə dair layihələri maliyyələşdirmək məqsədilə Tərəflərin könüllü üzvlük haqqları hesabına mühafizə fondu yarada bilər.
4. Birləşmiş Millətlər Təşkilatı, onun Xüsusi Agentlikləri Beynəlxalq Atom Enerjisi Agentliyi, Razılığın Tərəfi olmayan istənilən Dövlət, hansısa yolla miqrasiya edən su-bataqlıq quşlarının mühafizəsi ilə və idarəolunmaya daxil olmaqla, bağlı olan beynəlxalq konvensiyaların katiblikləri, Tərəflərin Müşavirəsinin sessiyalarında öz müşahidələri ilə təmsil ola bilərlər. Su-bataqlıq quşlarının tətqiq olunması və mühafizəsi ilə əlaqədar suallarda texniki cəhətdən kompetent olan istənilən agentlik və ya şəxs, əgər iştirak edən Tərəflərin, heç olmazsa, üçdə biri etiraz etmirsə, həmçinin Tərəflərin Müşavirəsinin sessiyalarında müşahidəçilərlə təqdim oluna bilər.
5. Səs vermək hüququna ancaq tərəflər malikdirlər. Hər bir Tərəf bir səsə malikdir, amma Razılığın Tərəfləri olan iqtisadi inteqrasiyanın regional təşkilatları onların kompetensiyasına uyğun gələn suallarda Razılığın Tərəfləri olan Üzv-

Dövlətlərin sayına bərabər səs sayı ilə səs vermə hüququna malikdirlər. Iqtisadi inteqrasiyanın regional təşkilatı öz səsvermə hüququndan istifadə etməməlidir, əgər Üzv-Dövlətlər öz səslərini istifadə edirlərsə və əksinə.

6. Əgər bu Razılıq başqa şey nəzərdə tutmursa, Tərəflərin Müşavirəsinin qərarı konsensusla qəbul olunur və ya konsensusa gəlmək mümkün deyilsə, iştirak edən və səs verənlərin Tərəflərin üçdə iki çoxluğu ilə.

7. Öz birinci sessiyasında Tərəflərin Müşavirəsi etməlidir:
   (a) prosedura qaydalarını konsensusla qəbul etmək;
   (b) Konvensiyanın Katibliyi çərçivəsində bu Razılığın VIII Maddəsində qeyd olunmuş Katiblik funksiyalarını yerinə yetirmək üçün. Razılığın Katibliyini təsis etsin;
   (v) bu Razılığın VII Maddəsində nəzərdə tutulmuş Texniki Komitəni təsis etsin;
   (q) bu Razılığın V Maddəsinin, 1 paraqrafının, (v) paraqrafaltına uyğun verilən hesabatların strukturunu qəbul etmək; və
   (d) mühafizə üzrə yubanmadan tədbirlər tələb edən fövqəladə halları müəyyən edən kriteriləri qəbul etmək və görülən tədbirlərə görə məsuliyyətin bölünməsi prinsiplərini təyin etmək;

8. Tərəflərin Müşavirəsi hər növbəti sessiyada etməlidir:
   (a) miqrasiya edən su-bataqlıq quşlarının müasir vəziyyətini və mühafizə statusunun potensial dəyişikləri̇ni və onların salamat qalması üçün vacib yaşayış yerlərini, habelə onlara mənfi təsir göstərə biləcək faktorları qiymətləndirmək;
   (b) bu Razılığın yerinə yetirərkən qazanılan uğurları və müxtəlif çətinlikləri nəzərdən keçirtmək;
   (q) büdcəni qəbul etmək və bu Razılığın maliyyə tərəfi ilə bəğlı istənilən sualları nəzərdən keçirtmək;
   (d) Razılığın Katibliyinə və Texniki Komitədə üzvlüyə aid istənilən sualları nəzərdən keçirtmək;
   (e) bu Razılığın Tərəflərinə və Konvensiya Tərəflərinin Konfransına göndərilən hesabatı qəbul etmək;
   (J) növbəti sessiyanın keçirilmə yerinin və vaxtının müəyyən edilməsi.

9. Tərəflərin Müşavirəsi istənilən sessiyada edə bilər:
   (a) əgər bu lazım bilinərsə Tərəflərə məsləhət vermək;
   (b) bu Razılığın effektlivliyinin qaldırılması üçün xüsusi tədbirlər qəbul etmək və bu Razılığın VII Maddəsinin 4 paraqrafına uyğun olaraq fövqəladə hallarda təcili cavab tədbirləri görmək;
   (q) büdcəni qəbul etmək və bu Razılığın maliyyə tərəfilə bağlı istənilən sualları nəzərdən keçirtmək;
   (d) Razılığın Katibliyinə və Texniki Komitənini üzvlüyə aid istənilən sualları nəzərdən keçirtmək;
   (e) bu Razılığın Tərəflərinə və Konvensiya Tərəflərinin Konfransının göndərilən hesabatı qəbul etmək;
   (j) növbəti sessiyanın keçirilmə yerini və vaxtının müəyyən edilməsi.

10. Tərəflərin Müşavirəsi istənilən sessiyada edə bilər:
   (a) əgər bu lazım bilinərsə Tərəflərə məsləhət vermək;
   (b) bu Razılığın effektlivliyini qaldırması üçün xüsusi tədbirlər qəbul etmək və bu Razılığın VIII Maddəsinin 4 paraqrafına uyğun olaraq fövqəladə hallarda təcili cavab tədbirləri görmək;
   (v) bu Razılığın təkminləşdirən təkliflərə uyğun qərarları nəzərdən keçirtmək və qəbul etmək;
   (q) bu Razılığın IV Maddəsinin 3 paraqrafına uyğun olaraq Tədbirlər Planına əlavə etmək;
   (d) əgər bu Razılığın həyata keçirilməsi üçün lazımdırsa köməkki orqanlar təsis etmək; xüsüsilə də digər beynəlxalq müqavilə konvensiya və sazişlərin

çərçivəsində təsis olunmuş coğrafi və taksonomik təsir sahələri qismən üst-üstə düşən orqanlarla əlaqədar olmaq üçün; və
(e) bu Razılığın yerinə yetirilməsi ilə əlaqədar olan istənilən digər suallara görə qərarlar qəbul etmək.

## Maddə VII

## Təxniki Komitə

!. Texniki Komitə aşağıdakılardan təşkil olunmalıdır:
(a) balanslandırılmış coğrafi paylanmaya uyğun olaraq Razılığın müxtəlif regionlarını təmsil edən doqquz ekspertdən;
(b) təbiətin və təbii ehtiyatların qorunması üzrə Beynəlxalq Ittifaqın bir nümayəndəsindən (IUCN), Su-Bataqlıq Quşlarının və Su-Bataqlıq əraziləri üzrə Beynəlxalq Bürosunun (IWRB) bir nümayəndəsindən və Ov Növlərinin Mühafizəsi üzrə Beynəlxalq Komitənin (CIC) bir nümayəndəsindən; və
(v) aşağıdakı sahələrin hər birindən bir ekspert olmaqla: kənd təsərrüfatı, ovçuluq təsərrüfatı, ətraf mühitin mühafizə sahəsində hüquq.
Ekspertlərin təyin olunması qaydaları, onların vəzifəyə təyin olunması vaxtı və Texniki Komitənin sədrinin müəyyən olunması qaydaları Tərəflərinin Müşavirəsi tərəfindən müəyyən olunmalıdır. Beynəlxalq hökümətlər arası və qeyri dövlət xüsusi təşkilatlarının maksimum dörd nümayəndəsinin iştirakına sədr icazə verə bilər.
2. Tərəflərin müşavirəsi başqa cür qərar verməzsə Texniki Komitənin müşavirəsi Razılığın Katibliyi tərəfindən Tərəflərin müşavirəsinin hər növbəti sessiyası ilə birgə çaxırılır və heç olmazsa daha bir dəfə Tərəflərin müşavirəsinin növbəti sessiyaları arasındakı zamanda.
3. Texniki Komitə etməlidir:
(a) Tərəflərinin Müşavirəsinə və Razılığın Katibliyi vasitəsi ilə, Razılığın Tərəflərinə elmi və texniki məsləhətlər və təlimatar vermək;
(b) Tədbirlər Planına, Razılığın yerinə yetirilməsinə və tətqiqatların sonrakı davamına dair Tərəflərin Müşavirəsinə tövsiyələr vermək;
(v) Tərəflərin müşavirəsinin hər növbəti sessiyasına öz fəaliyyəti haqda hesabat hazırlamaq; hesabat Razılığın Katidliyinə Tərəflərin Müşavirəsinin sessiyasının yüz iyirmi gün qalmışdan gec olmayaraq təqdim olunmalıdır; Hesabatın sürətləri sonradan Razılığın Katibliyi tərəfindən Tərəflərə göndərilir; və
(q) Tərəflərin müşavirəsinin tapşırdığı istənilən digər tapşırıqları yerinə yetirmək;
4. O hallardakı Texniki Komitənin fikirincə, bir və ya daha çox miqrasiya edən su-bataqlıq quşları növlərinin mühafizə statusunun pisləşməsinin qarşısını almağa imkan verən təxirə salınmaz tələblər tələb edən fövqəladə vəziyyət yaranır.Texniki Komitə Razılığın Katibliyinə müraciət edə bilər ki, bu suala aidiyyəti olan Tərəflərin fövqəladə görüşünü təcili çaxırsın. Bu Tərəflər təcili müşavirə keçirməlidirlər ki, qeyri qənaət-bəxş faktorların təhlükəli təsiri altında olan qeyd olunmuş növlərin müəyyən mühafizəsi üçün qısa müddətdə mexanizmlər işləməlidirlər. Belə fövqəladə müşavirələrdə tövsiyələr qəbul olunan hallarda, müvafiq tərəflərdən hər biri Razılığın Katibliyinə və bir birinə bu tövsiyələrin həyata keəirilməsi üçün görülmüş tədbirlər haqqında və ya onların yerinə yetirilə bilməməsi səbəbləri haqda məlumat verməlidirlər.
5. Texniki Komitə. lazım gələrsə, konkret tapşırıqlırı yerinə yetirmək üçün qruplar təsis edə bilər.

## Maddə VIII

## Razılığın Katibliyi

1. Razılığın Katibliyi aşağıdakı funksiyaları yerinə yetirir:
   (a) Tərəflərin sessiyasını, eləcə də Texniki Komitənin müşavirələrinin təşkili və keçirilməsi;
   (b) Tərəflərin müşavirəsi tərəfindən Katibliyə ünvanlanmış qərarların yerinə yetirilməsi;
   (v) Razılıqda, həmçinin Tədbirlər Planında, nəzərdə tutulmuş, Tərəflərin Müşavirəsinin qərarlarına uyğun tədbirlərin təklifi və koordinasiya olunması;
   (q) Razılığın Tərəfləri olmayan Areal Ölkələri ilə əlaqələrin yaradılması və fəalliyyətinə bilavasitə və ya dolayısı yolla miqrasiya edən su-bataqlıq quşlarının müdafiəsi və idarə olunmasıda daxil olan beynəlxalq və milli təşkilatlarla və Tərəflərin öz aralarında koordinasiyası;
   (d) Razılığın məqsədlərinin həll olunması üçün lazım olan məlumatların toplanması, analizi və bu məlumatların müntəzəm olaraq yayılması;
   (e) bu Razılaqlaşmanın məsələlərinə aid olan bütün suallara Tərəflərin Müşavirəsinin diqqətini cəlb etmək;
   (j) bu Razılığın V maddəsinin bir proqramının , (a) paraqrafaltlığında qeyd olunmuş Nümayəndələrinin hesabatlarının surətlərinin müntəzəm yaymaq(eləcə də Texniki Komitənin hesabatlarının); bunları bu Maddənin paraqrafın uyğun olaraq Katibliyin verməli olduğu hesabatın surəti ilə birlikdə Tərəflərin hər birinə Tərəflərin Müşavirəsinin hər növbəti sessiyasının başlanmasına altmış gün qalmışdan gec olmayaraq çatdırmaq lazımdır;
   (z) illik hesabatların hazırlanması Tərəflərin Müşavirəsinin hər növbəti sessiyasına Katibliyinin işi və Razılığın həyata keçirilməəsi haqda hesabatların hazırlanması;
   (i) Razılıq əcər yaradılarsa mühafizə fondunun büdcəsinin təşkili və aparılması;
   (k) Razılıqda və onun məqsədinə aid olan məlumatları geniş ictimayətə çatdırılması; və
   (l) bu Razılıqda və ya Tərəflərin Müşavirəsi tərəfindən Katibliyinə həvalə olunan istənilən dicər funksiyaların yerinə yetirilməsi.

## Maddə IX

## Su-bataqlıq quşlarına və onların yaşayış yerlərinə aidiyyatı olan beynəlxalq təşkilatlarla əlaqələr

1. Razılığın Katibliyi məsləhətləşmələr aparmalıdır:
   (a) Müntəzam əsaslar Konvensiyanın Katibliyi ilə və əgər lazımdırsa Sazişlər çərçivəsində Katibliklər funksiyaları yerinə yetirən orqanlarla ( Maddə IV, Konvensiyanın 3 və 4 paraqraflarında sadalanmış və miqrasiya edən su-bataqlıq quşlarına aidiyyatı olan ) ; Beynəlxalq Əhəmiyyətli Su-Bataqlıq Sahələri , əsas etibarı ilə, Suüzər Quşların Yaşayış Yeri kimi, 1971-ci il Konvensiyasının orqanları ilə Flora və Faunanın Nadir Növlərinin Beynəlxalq Ticarəti Konvensiyası, 1973-cü il, Təbiət və Təbii Sərvətlərin Mühafizəsi üzrə Afrika Konvensiyası, 1968-ci il, Avropanın Vəhşi Heyvanlarının və Təbii Yaşayış Yerlərinin Konvensiyası, 1979-cı il, və Bioloji Müxtəliflik üzrə Konvensiya, 1992-ci il ilə , - Tərəflərin Müşavirəsinin fəaliyyətinin və Konvensiyaların

Tərəfləri ilə koordinasiya etmək məqsədilə, xüsusi ilə, ümumi maraq doğuran və Fəaliyyət Planının hazırlanması və həyata keçirilməsi suallarında;
(b) ümumi maraq doğuran suallar üzrə istənilən digər Konvensiyaların və ya beynəlxalq təşkilatların Katiblikləri ilə; və
(v) istənilən digər təşkilatlarla; miqrasiya edən su-bataqlıq quşları ilə və onların yaşayış yerlərinin qorunması ( mühafizə və idarəolunma daxil olmaqla), eləcə də elmi tətqiqatlar, təhsil və ictimai marağın formalaşdırılması sahəsində səlahiyyətli istənilən digər təşkilatlarla.

## Maddə X

## Razılıqda Düzəlişlər

1. Razılıqda Düzəlişlər Tərəflərin Müşavirəsinin istənilən növbəti və ya növbədən kənar sessiyasında daxil edilə bilər.
2. Hər bir Tərəf düzəlişlər barədə təkliflər verə bilər.
3. Hər bir təklif olunan düzəlişin mətni, onun əsaslanması ilə, Razılaşmanın Katibliyinə sessiyanın başlanması yüz əlli gündən gec olmayaraq təqdim olunmalıdır. Razılaşmanın Katibliyi tanış olmaq üçün sürətləri bütün Tərəflərə göndərilməlidir. Bu mətnlə əlaqədar istənilən şərhlər Konvensiya sessiyasının başlanmasına altmış gündən gec olmayaraq göndərilmişdir. Şərhlərin təqdim olunma vaxtı başa çatandan sonra Katiblik və daxil olunmuş şərhləri qısa müddət ərzində Tərəflərə çatdırmalıdır.
4. Razılığın mətninə düzəliş, əgər bu onun əlavələrinə düzəliş deyildirsə, iştirak edən və səs verən Tərəflərin öz də üçdə iki səs çoxluğu ilə qəbul olunur və qəbul edən Tərəflər üçün, Razılığın Tərəflərinin üçdə ikisi düzəlişin qəbul olunduğu gün düzəlişin qəbul olunması barədə rəsmi sənədləri Depozitariyə təqdim etdiyi tarixdən otuzuncu gün qüvvəyə minir. Tərəflərin üçdə ikisinin qəbul olunması haqda artıq öz rəsmi sənədlərini təqdim etdirdikləri tarixdən sonra düzəlişin qəbul olunması haqda sənəd təqdim edən Tərəf üçün düzəliş sənədlərini təqdim olunduğu tarixdən otuzuncu gün sonra qüvvəyə minir.
5. Istənilən əlavə qoşmalar və ya iətənilən qoşmaya düzəliş iştirak edən və səs verən Tərəflərin üçdə iki çoxluğu ilə qəbul olunmalıdır və Tərəflərin Müşavirəsinin onların qəbul etdiyi gündən doğsanıncı gün bütün Tərəflər üçün qüvvəyə minir; bu Maddənin  paraqrafına uyğun olaraq düzəliş vermiş Tərəflər istisna olmaqla.
6. Bu Maddənin 5 paraqrafı ilə müəyyən olunmuş doğsan günlük müddət ərzində istənilən Tərəf əlavə qoşmaya düzəliş etmək hüququnu özündən saxlanması barədə Depozitariyə yazılı xəbardarlıq məktubu göndərə bilər. Tərəf bu düzəlişi istənilən vaxt Depozitariyə təkrar yazılı müraciət etməklə ləvğ edə bilər; bu halda əlavə qoşma və qoşmaya əlavə bu Tərəf üçün düzəlişin geri götürdüyü tarixdən sonra otuzuncu gün qüvvəyə minirlər.

## Aktlara təsiri Maddə XI

## Bu Razılaşmanın Beynəlxalq Konvensiyalara və qanunverici

1. Bu Razılaşmanın şərtləri hər hansı bir Tərəfin, mövcud digər beynəlxalq müqavilələrdən, Konvensiyalardan və ya sazişlərdən irəli gələn, hüquqlarına və öhdəliklərinə təsir göstərmir.
2. Bu Razılaşmanın şərtləri miqrasiya edən su-bataqlıq quşlarının mühafizəsi ilə əlaqədar daha ciddi tədbirləri dəstəkləmək və ya qəbul etmək üzrə istənilən Tərəfin hüquqlarına heç bir təsir göstərə bilməz.

## Maddə XII

## Ziddiyətlərin nizamlanması

1. Tərəflər arasında bu Razılaşmanın müddəalarının interpritasiyası və ya tətbiqi barədə yarana biləcək istənilən ziddiyyət bu ziddiyyətə cəlb olunmuş Tərəflərinin müzakirə obyekti olmalıdır.
2. Əgər hər hansı bir ziddiyət bu maddənin 1 paraqrafına uyğun olaraq həll oluna bilinmirsə, Tərəflər ümumi Razılığa görə müzakirəni arbitraja verə bilərlər ( məsələn, Haaqadakı Daimi Arbitraj Məhkəməsinin arbitrajına) və ziddiyyətinə cəlb olunmuş Tələblər üçun arbitrajın qərarlarını yerinə yetirmək vacibdir.

## Maddə VIII

## Imzalanma, Ratifikasiya, Qəbul olunma, Bəyənmə, Giriş.

